ASC “Xalq” Bankının ödəniş kart(lar)ının buraxılması və on(lar)a xidmət göstərilməsi haqqında Müqaviləyə
Əlavə № 12

**Fərdi sahibkarlar üçün Bankın Ödəniş kartlarının buraxılması və onlara xidmət göstərilməsinin xüsusiyyətləri**

1. Bank tərəfindən fərdi sahibkar üçün buraxılan Ödəniş kart(lar)ı sahibkarlıq fəaliyyəti çərçivəsində Əməliyyatların aparılması üçün istifadə oluna bilər.
2. Bu Əlavənin 1-ci bəndində qeyd edilmiş Ödəniş kart(lar)ı üzrə aşağıdakı Əməliyyatların aparılmasına icazə verilmir:
- “Card to Card” xidməti vasitəsilə Ödəniş kartından köçürmə əməliyyatları;
- “Unique” tipli Əməliyyatlar (kazino, mərc oyunları);
- Kredit ödənişləri;
- 3-cü şəxsin cari hesabına mal, iş və xidmətlərin dəyərinin ödənilməsi ilə bağlı olmayan köçürmələr.

3. Sahibkarlıq fəaliyyəti çərçivəsində Əməliyyatların aparılması üçün fərdi sahibkar olan Kart saxlayıcısına Bank tərəfindən Ödəniş kart(lar)ı aşağıdakı növlərdən birində buraxılır:
1) Visa Business;
2) MasterCard Business.

4. Bank tərəfindən Kart saxlayıcısına və ya onun Banka göstərdiyi və Kart saxlayıcısı ilə əmək münasibətlərində olan şəxs(lər)in adına sahibkarlıq fəaliyyəti çərçivəsində Əməliyyatların aparılması üçün Əsas kart üzrə say baxımından məhdudiyyət qoyulmadan Əlavə kartlar buraxıla bilər.
5. Sahibkarlıq fəaliyyəti çərçivəsində Əməliyyatların aparılması üçün Kart saxlayıcısına Bank tərəfindən buraxılmış bütün Kartlar üzrə təqvim ayı ərzində nağd vəsaitlərin milli və/və ya xarici valyutada məxaric edilməsinin ümumi məbləği (maksimal limit) 15 000 (on beş min) manat və ya bu məbləğə ekvivalent olan müvafiq xarici valyuta məbləğindən artıq ola bilməz.